**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**LEYLA VAQİF QIZI**

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏMƏKDAŞLIQ (1991-2008-CI ILLƏR)

İxtisas: 5502.01 - Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **M.B.FƏTƏLİYEV**

**Rəsmi opponentlər:**

AMEA-nın müxbir üzvü, professor **M.C.QASIMLI**
tarix üzrə elmlər doktoru, professor **H.C.ƏLİBƏYLİ**

**Aparıcı təşkilat** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "____" "________" 2017-ci il tarixli iclasında saat___$^{00}$ da keçiriləcəkdir.

**Ünvan:** AZ - 1148, Bakı, akad. Z.Xəlilov küç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" __________2017-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir beynəlxalq münasibətlərin fəal aktorlarından biri kimi Azərbaycan Respublikasının xarici siyasət prioritetləri içərisində Avropa inteqrasiya proseslərinə qoşulmaq, təhlükəsizlik məkanına qatılmaq, "Ümumi bazarda" yer tutmaq və Qərb dəyərləri ilə səciyyələnən demokratik cəmiyyət quruculuğunu həyata keçirmək mühüm əhəmiyyətə malikdir. Qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması beynəlxalq təşkilatlar, ilk növbədə Avropa qurumları içərisində mühüm yer tutan Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsini zəruri edir. Dövlət müstəqilliyinin ilk dövrlərindən respublikamızın xarici siyasət fəaliyyətində başlıca məqsəd ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi yolu ilə dünya birliyinin sıralarında, müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq, imic qazanmaq, dost və tərəfdaşların sayını artırmaqdır. Məsələyə bu yönümdən yanaşan xalqımızın Ümummilli lideri Heydər Əliyev qeyd edirdi ki, "dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və İttifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir"[1].

XX yüzillikdə iki dünya müharibəsinin acısını yaşamış Avropanın birləşməkdən başqa yolu olmadığı kimi, müstəqilliklərinin ilk iyirmi beş ilini arxada qoyan Cənubi Qafqaz respublikalarının, o cümlədən də Azərbaycan Respublikasının bölgədə yaranmış vəziyyətdən çıxmaq üçün istinad yeri həmin qazanılmış tarixi təcrübədən istifadə ola bilər. Bu mənada politoloji elmlər, xüsusilə tarix elmi sahəsində elmi araşdırmaların başlıca məqsədi baş verməkdə olan hadisə və proseslərin hərtərəfli təhlilini verməklə qarşıda duran vəzifələri və inkişaf yollarını müəyyənləşdirmək, əsaslı elmi proqnozlar verməkdən ibarətdir.

Avropa qitəsi demokratiyanın inkişafı istiqamətində uzunmüddətli və mürəkkəb bir yol keçmiş, bu sahədə böyük təcrübə və elmi-praktiki bilgilər toplamışdır. Demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının təmin olunması, tolerantlığın qorunub saxlanılması, vətəndaş cəmiyyətinin formalaşdırılması Azərbaycan dövlətinin yeritdiyi siyasətin də əsas istiqamətlərindəndir. Avropa İttifaqı üçün indi də aktual olaraq qalan bu məsələlər qitənin onilliklər ərzində topladığı təcrübədən gənc demokratiya ölkəsi kimi Azərbaycan Respublikasının da istifadə etməsi məqsədəuyğun və

---

[1] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər. N.İbrahimov, İ.Şükürov. Bakı: Azərbaycan, 1994, s.31.

vacibdir. Məhz buna görə də Ümummilli lider Heydər Əliyev 1996-cı il aprelin 22-də Lüksemburqda, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinin imzalanması mərasimində çıxış edərkən demişdir: "Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir. Qısa bir zaman ərzində bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir... Avropa Birliyinin topladığı təcrübə və bu birliyə daxil olan dövlətlərin demokratiyanı inkişaf etdirməkdə, səmərəli iqtisadiyyat yaratmaqda, öz xalqlarının firavanlığını təmin etməkdə qazandıqları müvəffəqiyyətlər gənc müstəqil dövlətlər üçün gözəl nümunədir"[1].

Azərbaycan Respublikası ilə əlaqələrin qurulması və inkişafında Avropa İttifaqının da maraqları kifayət qədər böyükdür. Belə əməkdaşlığa təsir göstərən amillərin diapozonu geosiyasi nüfuz dairəsinin genişləndirilməsindən enerji təhlükəsizliyinin təmin olunmasınadək uzanıb gedir. "Şərqə genişlənmə" planının tərkib hissəsi kimi, Cənubi Qafqaz və Mərkəzi Asiya respublikaları ilə əlaqələrin intensivləşdirilməsi Birliyin prioritet məqsədlərinə daxildir. Belə ki, göstərilən regionların müstəqil dövlətləri ilə münasibətlərin qurulması və inkişafı İttifaqın əməkdaşlıq coğrafiyasının genişləndirilməsi yolunda mühüm istiqamətlərdən biri olaraq qalmaqdadır.

Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin inkişafını şərtləndirən amillər sırasında təhlükəsizlik məsələləri də ön sırada yer alır. Müasir dövrdə "təhlükəsizlik" anlayışı məqsəd və yanaşmadan asılı olaraq müxtəlif aspektlərdə başa düşülə və qiymətləndirilə bilər. Azərbaycanın Avropa təhlükəsizlik məkanına inteqrasiyası özündə daha çox hərbi-siyasi və enerji təhlükəsizliyi ilə bağlı məqamları ehtiva edir. Hərbi-siyasi təhlükəsizlik problemi Azərbaycan - Avropa İttifaqı əlaqələrində müzakirə olunan mühüm məsələlərdən biri kimi ilk növbədə Ermənistanın Azərbaycana təcavüzü, respublikanın üzləşdiyi etnik separatizm və radikal millətçilikdən qaynaqlanan təhdidlər sırasında olub Avropa İttifaqı üçün də ciddi təhlükə mənbəyidir. Çünki etnik-siyasi münaqişələr sahəsində böyük tarixi təcrübəyə malik olan Birliyin sərhədləri yaxınlığında münaqişələrin, o cümlədən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması Avropa məkanında təhlükəsizliyin tam təmin olunmadığını göstərir.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Altıncı kitab: mart 1996 - iyun 1996. Bakı: Azərnəşr, 1998, s.145-146.

Avropa İttifaqının enerji təhlükəsizliyi sahəsində çoxsaylı problemlərlə üzləşdiyi məlum faktdır. Enerji sahəsində Rusiyadan ciddi asılılıq və bu ölkənin karbohidrogen ehtiyatlarının Qərbə ötürülməsində əsas tranzit ölkə olan Ukraynada baş verən hərbi-siyasi qarşıdurmalar nəticəsində neft-qaz idxalında yaranan fasilələr Avropanın enerji təminatında ciddi problemlər yaradır. Təsadüfi deyil ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına çıxarılması Avropa üçün alternativ enerji mənbəyi kimi əhəmiyyətli rol oynayır və bu sahədə əməkdaşlığın genişləndirilməsinə Avropa İttifaqının böyük ehtiyacı var. Mütəxəssislərin hesablamalarına görə, Avropanın ekoloji səbəblərdən daş kömürə qayıtmaq imkanı yoxdur, ictimaiyyətin narazılığı isə nüvə enerjisinin istehsalına imkan vermir, baxmayaraq ki, həmin baza dünyanın hər hansı yerində daha rasional şəkildə istifadə edilir. Aİ-nin ixracatdan asılılığı onun yeni üzvlərinin hesabına genişlənməsi nəticəsində daha da artmışdır. Belə ki, Aİ üzvlərinin sayı o dövlətlərin hesabına 28-ə çatmışdır ki, bunlarda istehsalın enerji həcmi yüksək, karbohidrogen ehtiyatları isə praktiki olaraq yox dərəcəsindədir. Deməli, Avropa İttifaqının təhlükəsiz bir məkana çevrilməsi onun sərhədləri yaxınlığında mövcud olan münaqişələrin həllindən və regionun enerji təminatı mənbələrinin diversifikasiyasından kifayət qədər aslıdır. Bu məqam Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığı qaçılmaz etməklə bərabər, digər tərəfdən Rusiyanın regiondan sıxışdırılıb çıxarılması zərurətini yaradır ki, bu da regionun geosiyasi mənzərəsini olduqca tündləşdirir. Yaranmış vəziyyət milli diplomatiyamızdan nə dərəcədə çevik və gərgin fəaliyyət göstərmək tələb edirsə, elmi-ictimai fikirdən də bir o qədər yaradıcılıq, ətraflı tədqiqatların və təhlillərin aparılmasını, elmi-nəzəri araşdırmaların ərsəyə gətirilməsini, hadisə və proseslərin inkişaf dinamikasına dair elmi və obyektiv proqnoz və tövsiyələrin verilməsini zəruri edir. Təsadüfi deyil ki, tədqiqat işi istər Cənubi Qafqaz regionunda, istərsə də Avropada dinc birgəyaşayış və təhlükəsizliyin təmin olunması baxımından da aktualdır. Fikrimizcə, Azərbaycanın dünya birliyinin sıralarına, habelə birliyin tərkib hissəsi kimi Avropa İttifaqına inteqrasiyasının tədqiq olunması öz aktuallığını və perspektivliyini zaman-zaman saxlayacaqdır.

Qeyd edilən amillər Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığının öyrənilməsinin aktuallığını və dəyərini göstərməklə mövzunun dissertasiya işi kimi tədqiq edilməsinə əsas verir.

**Tədqiqatın obyekti.** Dünya birliyinə inteqrasiya kontekstində 1991-2008-ci illərdə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlığın tədqiqi məsələlərinin araşdırılmasıdır.

**Tədqiqatın predmeti** tərəflər arasında ötən yüzilliyin 90-cı illərinin əvvəllərindən müasir dövrədək yüksələn xəttlə dinamik inkişaf edən çoxşaxəli əlaqə və əməkdaşlığın öyrənilməsini təşkil edir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1991-2008-ci illəri əhatə edir və bu çərçivənin seçilməsi bir neçə vacib amillə bağlıdır. Tədqiqatın çıxış nöqtəsi kimi, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi və beynəlxalq aləmlə, o cümlədən Avropa ölkələri ilə əlaqələrin qurulmağa başlandığı 1991-ci il götürülmüş, Avropa İttifaqının öz qonşuları ilə münasibətlərində yeni mərhələnin başlanğıcı olan "Şərq Tərəfdaşlığı təşəbbüsü"nün irəli sürüldüyü 2008-ci illə yekunlaşmışdır. Müəyyənləşdirilmiş dövrü şərti olaraq üç mərhələyə bölə bilərik. Birinci mərhələ Azərbaycan və Avropa İttifaqı arasında rəsmi əlaqələrin qurulduğu, tərəflər arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalandığı və əməkdaşlıq istiqamətində fəaliyyətin genişləndiyi 1991-1999-cu illəri əhatə edir. İkinci mərhələdə, yəni 2000-2005-ci illərdə Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni dövr başlayır, respublikamız Aİ-nin qonşuluq siyasətinə qatılır. 2006-2008-ci illəri əhatə edən üçüncü mərhələdə isə qarşılıqlı çoxtərəfli əməkdaşlıq dinamik inkişaf edir, Birliyin Azərbaycana münasibətdə "ikili standartları" üzə çıxır, enerji sahəsində əlaqələrin inkişafı ilə xarakterizə olunur. Tədqiqat prosesində zərurət yarandıqda xronoloji çərçivədən kənara çıxmalara da yol verilmişdir.

**Problemin öyrənilmə dərəcəsi.** Tədqiqat prosesinə cəlb olunan əsərləri və araşdırmaları şərti olaraq üç qrupa bölmək olar:

- Azərbaycan müəlliflərinin əsər və tədqiqatları;
- tədqiq edilən problemə Rusiya ictimai-siyasi fikrinin mövqeyini əks etdirən araşdırmalar;
- Qərb müəlliflərinin tədqiqat və araşdırmaları.

Aparılmış araşdırmalar, toplanmış materialların analiz-sintezi və tarixi-müqayisəli təhlil prosesində bitərəf tədqiqatçı mövqeyi əsas götürülmüş, bununla belə hadisə və proseslərə Azərbaycan Respublikasının mənafeləri əsas götürülməklə obyektiv qiymət verilmiş, subyektiv məsələlərə, "ikili standartlara" tənqidi münasibət öz əksini tapmışdır.

Birinci qrupa daxil olan araşdırmalara R.Ə.Mehdiyevin [1] tədqiqatlarını göstərmək olar ki, bunlarda respublikamızın xarici siyasət fəaliyyəti üçün

---

[1] Mehdiyev R.Ə. Azərbaycan qloballaşma dövrünün tələbləri. Bakı: Elm, 2004, 228 s.; Yenə onun. Modernləşmə xətti yenə də gündəlikdədir. Bakı: Şərq-Qərb, 2008, 224 s.; Yenə onun. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: Polygraphic Production, 2006, 583 s.; Yenə onun. XXI əsrdə milli dövlətçilik. Bakı: XXI əsr - Yeni nəşrlər Evi, 2003, 248 s.

mühüm əhəmiyyətə malik olan sənəd və materialların təhlili verilir. Qloballaşma şəraitində milli dövlətçilik və onun qorunması, bəşəri və demokratik dəyərlərə sadiqlik, ölkənin xarici siyasətini müəyyənləşdirərkən bunların nəzərə alınması bu əsərlərdə xüsusi olaraq vurğulanır. Müəllifin tarixiliyə və müasirliyə əsaslanan fikirləri ümumilikdə Azərbaycanın xarici siyasətinin, o cümlədən Avropa siyasətinin tədqiqi üçün konseptual əhəmiyyətə malikdir.

Müstəqillik illərində Azərbaycanın xarici siyasətinin formalaşması və inkişafı, onun elmi-nəzəri əsasları və praktiki nəticələri Ə.M.Həsənov[1] və N.Məmmədovun [2] əsərlərində ətraflı şərh olunmuşdur. Bu müəlliflər Azərbaycan-Aİ əməkdaşlığına geosiyasi aspektdən də yanaşmış və respublikamızın çoxtərəfli əlaqələrini konkret istiqamətlərə ayırmaqla təhlil etmişlər. M.C.Qasımovun [3] əsərlərində isə tarixi-xronoloji ardıcıllıqla müstəqilliyin ilk illərində əldə edilənlər təhlil edilmiş, xarici siyasətdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın rolu və əhəmiyyəti açıqlanmış, həllini gözləyən məsələlərə və inkişaf istiqamətlərinə dair konseptual fikir və mülahizələr irəli sürülmüşdür. Xüsusilə 1991-1993-cü illərdə Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığına həsr olunmuş əsərlərin sayı o qədər də çox deyil, hesab edirik ki, bu ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin yaratdığı gərginlik və Aİ-nin bütövlükdə regiona humanitar yardımların göstərilməsilə kifayətlənməsi olmuşdur. Bununla belə, arxiv materiallarında[4], "Qətiyyətin təntənəsi"[5] kimi sənəd və materiallar toplularında və bir sıra azərbaycanlı tədqiqatçıların

---

[1] Həsənov Ə.M. Azərbaycanın Avropa dövlətləri və ABŞ-la münasibətləri. (1991-1996). Bakı: Elm, 2000, 368 s.; Yenə onun. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 315 s.; Yenə onun. Geosiyasət. Bakı: Aypara-3, 2010, 604 s.; Yenə onun. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı: Azərbaycan nəşriyyatı, 2005, s. 571-582; Yenə onun. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 725 s.

[2] Məmmədov N. Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri haqqında // Azərbaycan Fokus, Bakı, 2010, № 2 (2), s. 17-50; Yenə onun. Geosiyasətə giriş. İki cilddə. I və II c., Bakı: Azərbaycan nəşriyyatı, 2011, 576 s.; 416 s.

[3] Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, 140 s.; Yenə onun. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 119 s.

[4] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi, f. 19, siy. 8, iş 56, v. 6; Yenə orada, f. 19, siy. 8, iş 214, v. 56; Yenə orada, f. 19, siy. 8, iş 402, v. 23.

[5] Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı: Qorqud nəşr., 1995, 848 s.

əsərlərində[1] qeyd edilən problemlə bağlı məqamlara aydınlıq gətirilmiş və səbəbləri göstərilmişdir.

Müasir dövrdə dövlətlərarası ikitərəfli və çoxtərəfli əməkdaşlığı dünyada mövcud olan inteqrasiya meyllərini, geosiyasi və geoiqtisadi mübarizəni, təhlükəsizlik məsələlərini nəzərə almadan öyrənmək mümkün deyildir və bunu nəzərə alaraq, tədqiqat prosesində, qeyd olunan sahələrə aid problemlərin araşdırılması ilə məşğul olan müəlliflərin əsərlərinə də müraciət olunmuşdur. Belə müəlliflərdən V.İ.Abdullayev, A.N.Abbasbəyli, H.M.Rəcəbli və V.Ə.İbayev, L.Axundova, Ş.V.Bayramov, R.Sadıqov və s. əsərləri[2] ndə diplomatiya, geosiyasət, təhlükəsizlik və xarici siyasi əlaqələr sahəsində məsələlərə yetərincə əhəmiyyət verilməsinə baxmayaraq, Aİ ilə bağlı məsələlər ümumi şəkildə nəzərdən keçirilmişdir. Ç.M.Abbasov və A.Ş.Şəkərəliyev isə öz əsərləri[3] ndə yalnız iqtisadi sahələrdə Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığı məsələlərini işıqlandırmışlar. Göstərilən tədqiqatların ümumi çatışmayan cəhəti tədqiq edilən problemə subyektiv mövqelərdən yanaşmadır, halbuki problemə kompleks yanaşılmalı və Avropa İttifaqı ölkələrinin Azərbaycana olan maraqlarından çıxış edilməsi əsas götürülməlidir.

Tədqiqatçılardan M.B.Haqverdiyev yazır ki, "müasir dünya nizamı XX yüzilliyin 90-cı illərində baş vermiş qlobal xarakterli geosiyasi dəyişikliklərin təsiri altında formalaşmışdır. Avropa evinin Şərq sütunlarının çökməsi (QİYŞ-

---

[1] Əhmədov M.V. Azərbaycan: yeni neft erası və beynalxalq siyasət. Bakı: Elm, 1997, 112 s.; Haqverdiyev M.B. Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan. Bakı: Elm və təhsil, 2011, 232 s.; Quliyeva G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Bakı: Elm, 2011, 423 s.

[2] Abdullayev V.İ. Azərbaycan Yeni diplomatiya məkanında. Bakı: Azərbaycan, 2000, 245 s.; Аббасбейли А.Н. Единая Европа сегодня и завтра //Вести Бакинского Славянского Университета, 2000, № 3, с.76-86; Rəcəbli H.M., İbayev V.Ə. Avropa Şurası. Bakı: Elm, 1999, 118 s.; Ахундова Л. Инициатива ЕС объединяет страны евро-азиатского континента //Изв. АН Азербайджана, 1999, №2 с.149-156; Bayramov Ş.V. Avropa İttifaqının genişlənməsi və Avropa Qonşuluq Siyasəti: müqayisəli təhlil və qiymətləndirmə//Azərbaycanın vergi xəbərləri, 2011, №3, s. 67-74; Sadıqov R. Avropa İttifaqının Şərq Siyasətində yeni meyarlar - "Avropa Qonşuluq Siyasəti","Şərq Tərəfdaşlığı"//Tarix və onun problemləri, Bakı, 2009, №4, s. 260-266; Sadıqov R.Ə. Avropa İttifaqının şərq siyasətində Cənubi Qafqaz faktoru: Siyasi elmlər üzrə fəlsəfə doktoru... dis. avtoref. Bakı, 2011, 28 s.

[3] Abbasov Ç.M. Azərbaycan: dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.; Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: realliqlar və perspektivlər Bakı: İqtisad Universiteti, 2009, 414 s.

ın və Varşava Müqaviləsi Təşkilatının buraxılması) nəticəsində yaranmış boşluğun doldurulması Avropa strukturlarından, ilk növbədə Avropa İttifaqı, NATO və ATƏT-dən sürətli yeni strateji kurs götürməyi tələb edirdi. Məhz bu zəmində Aİ-nin və NATO-nun start verdiyi genişlənmə siyasəti ilk növbədə təhlükəsizlik məkanının genişlənməsi idi ki, bu prosesə Cənubi Qafqaz respublikalarından dərhal qatılan Azərbaycan və Gürcüstan respublikaları oldu"[1]. Fikrimizcə, bu məsələdə Ermənistan Respublikası və onun Qərb ölkələri ilə əlaqələri də nəzərdən qaçırılmamalıdır, belə ki, Ermənistan Fransa ilə xüsusi əlaqələrə malikdir, Fransa isə Aİ-də söz sahibi hesab olunur.

Azərbaycanlı müəlliflərdən H.K.Hüseynova yazır ki, Avropa İttifaqı üçün genişlənmə o zaman arzu edilən ola bilər ki, siyasi motivlər iqtisadi cəhətdən az xərclərlə və ya təmiz gəlirlə müşayiət olunsun və onun genişlənməsi tikanlı problemlərdən yan keçsin. Lakin bu mümkün olası bir məsələ deyildi, çünki inteqrasiya prosesləri zamanı inteqrasiyaya məruz qalmış ölkələrdə qiymətlər liberallaşdırılacaq və sənaye ixtisaslaşmaqla inkişaf edəcəkdir. Müəllifə görə, inteqrasiya nəticəsində Avropa İttifaqı qarşısında durmuş müəyyən problemlər inteqrasiyaya məruz qalmış ölkələrə tərəf yerdəyişmə edəcək, üstəlik üzə çıxacaq ciddi rəqabət bəzi ənənəvi sənaye sahələrinə zərbə endirəcəkdir[2]. Tədqiqatın əhəmiyyətinə baxmayaraq, onun xronoloji hüdudları 1998-ci ilin əvvəlləri ilə başa çatır, bu isə yeni tədqiqatların aparılmasını zəruri edir. Tədqiqatçılardan S.İ.Seyidov, M.Ə.Baxışov, E.Süleymanovun əsərləri[3]ndə Azərbaycanın Avropa məkanına inteqrasiyası, bu prosesin mərhələləri və xüsusiyyətlərinə digər məsələlər kontekstində mövqe bildirilir.

Azərbaycanlı müəlliflərin əsərlərində Azərbaycanın Aİ ilə əməkdaşlığına əsasən Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatların, o cümlədən Avropa İttifaqının məsələyə münasibəti kontekstində yanaşılır və müəlliflər Avropa İttifaqının Azərbaycanla bağlı qəbul etdiyi sənədlərə diqqət yetirərək onlara müəyyən şərhlər verirlər. Dağlıq Qarabağ münaqişəsi ilə

---

[1] Haqverdiyev M.B. Müasir dövrdə ümumavropa təhlükəsizliyi və Azərbaycan. Bakı: 2011, s. 2.
[2] Hüseynova H.K. Müasir inteqrasiya prosesləri. Bakı: 2010, s. 89.
[3] Seyidov S.İ. Avropa məkanına inteqrasiya mərhələləri //Azərbaycan Fokus, Bakı, 2010, № 2 (2), s. 51-74; Baxışov M.Ə. ABŞ-la Avropa İttifaqı arasında qarşılıqlı münasibətlərin səciyyəvi cəhətləri (XX əsrin 90-cı illəri - XXI əsrin əvvəlləri)//Tarix və onun problemləri, Bakı, 2013, № 2, s. 256-259; Süleymanov E. Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru. Bakı: CBS poligraphic production, 2011, 112 s.

əlaqədar E.İ.Əhmədov və A.A.Aslanlının əsərləri[1] bu baxımdan əsaslı tədqiqat əsərləridir.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin müxtəlif aspektləri ilə bağlı son illərdə bir sıra dissertasiyalar yazılmış, onların avtoreferatları işıq üzü görmüşdür. Tədqiq olunan mövzunun kompleks şəkildə öyrənilməsi üçün H.A. Həmidovun, H.B.Məmmədovun, N.C.Nağıyevanın, R.Ə.Sadıqovun, T.X.Vəliyevanın, R.S.Qasımzadənin, F.Ş.Hüseynovun tədqiqatları[2]nın elmi-praktiki nəticələrinə də müraciət olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycan-Avropa İttifaqı münasibətlərində enerji məsələləri mühüm əhəmiyyətə malikdir. Azərbaycan neftinin dünəni və bu günü, iqtisadi əhəmiyyəti, respublikanın xarici siyasətində, o cümlədən Avropa ölkələri ilə münasibətlərində yeri və rolu Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin “Azərbaycanın Xəzər nefti” tədqiqatı[3]nda ətraflı araşdırılmışdır. Xəzər nefti ətrafında cərəyan edən geosiyasi və geoiqtisadi proseslər M.V.Əhmədov, V.A.Hüseynov, Ç.A.Sultanov və digər müəlliflərin əsərləri[4]nin əsas mövzusunu təşkil edir. Bu əsərlərin başlıca çatışmayan cəhəti

---

[1] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Tuna, 1998, 138 s.; Aslanlı A.A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı: Nurlan, 2009, 112 s.

[2] Həmidov H.A. İpək yolu və Azərbaycanın strateji maraqları (tarix və müasirlik): Siyasi elmlər doktoru... dis. avtoref. Bakı, 2012, 32 s.; Məmmədov H.B. Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi: Siyasi elmlər doktoru... dis. avtoref. Bakı, 2013, 44 s.; Nağıyeva N.C. Avropa mərkəzçiliyinin müasir modelləri: Siyasi elmlər üzrə fəlsəfə doktoru... dis. avtoref. Bakı, 2011, 23 s.; Sadıqov R. Avropa İttifaqının Şərq Siyasətində yeni meyarlar – “Avropa Qonşuluq Siyasəti”, “Şərq Tərəfdaşlığı” //Tarix və onun problemləri. Bakı, 2009, №4, s. 260-266; Vəliyeva T.X. Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti: Cənubi Qafqaz regionu ilə qarşılıqlı münasibətlər kontekstində: Siyasi elmlər üzrə fəlsəfə doktoru... dis. avtoref. Bakı, 2014, 31 s.; Гасымзаде Р.С. Взаимоотношения Азербайджанской Республики и Европейского Союза в рамках региональной интеграции и программы «новое соседство»: Автореф. дис. … канд. полит. наук. Баку, 2007, 31 с.; Гусейнов Ф.Ш. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики: Автореф. дис. … доктора философии по политическим наукам. Баку, 2011, 48 с.

[3] Алиев И. Каспийская нефть Азербайджана. Москва: Известия, 2003, 712 с.

[4] Əhmədov M.V. Azərbaycan: yeni neft erası və beynalxalq siyasət. Bakı: Elm, 1997, 112 s.; Гусейнов В.А. Каспийская нефть. Экономика и геополитика. Москва: ОЛМА-ПРЕСС, 2002, 380 с.; Султанов Ч.А. Нефтегазовые стратегии и политика в XXI веке. Баку: Нурлар, 2008, 704 с.

problemin beynəlxalq və geosiyasi tərəflərinin diqqətdən bir qədər kənarda qalmasıdır.

Araşdırılan problemlə bağlı tədqiqatların ikinci qrupuna rusiyalı müəlliflərin əsər və araşdırmaları daxildir. Tədqiqata cəlb edilən əsərlərin bu qrupuna S.S.Artobolevski, İ.D.İvanov və başqalarının tədqiqatlarını daxil etmək olar. Qeyd olunan müəlliflər tədqiqatlarını Avropa İttifaqı, onun xarici siyasətinin və regional siyasətinin genişlənməsi, “Avropa qonşuluq siyasəti”, “Şərq tərəfdaşlığı” təşəbbüslərinin öyrənilməsinə həsr etmiş və tədqiq olunan mövzu üçün də maraqlı fikirlər irəli sürmüşlər. “Dövlətin Avropa siyasətinin daimi və dəyişən amillərdən” asılı olduğunu göstərən rusiyali müəlliflərə görə, “Aİ Şərqi Avropa ölkələrini Rusiyaya qarşı bufer qurşağa çevirmiş, Aİ-nin başlıca aktorları isə postsovet məkanına, xüsusilə onun cənubuna münasibətdə məlum səbəblərə görə olduqca fəallaşmışlar”[1].

Qeyd etməyə dəyər ki, rusiyalı müəlliflər əsasən Cənubi Qafqazda cərəyan edən hadisələrə, bu respublikaların, xüsusilə Azərbaycanın Avropa ölkələri ilə əlaqələrinin genişlənməsinə, respublikamızın “neft və kommunikasiya diplomatiyasının” uğurlarına qısqanc münasibət bəsləyir və qeyri-obyektiv mövqedən çıxış edirlər ki, bunu S.A.Kononenkonun dissertasiyasının avtoreferatın[2] və O.V.Şabelnikovanın dissertasiyasında[3] açıq şəkildə müşahidə edirik. Rusiya əvvəllərdə olduğu kimi yenə də regiona özününkü kimi baxır, geoiqtisadi amillərin geosiyasi ambisiyaları üstələməsi ilə barışmaq istəmir.

Rusiyalı tədqiqatçılardan O.P.İvanov və O.S.Minayev, İ.M.Maxnaç və İ.Q.Paşkovskaya, A.K.Maqomedov öz əsərləri[4]ndə Avropa İttifaqının enerji

---

[1] Артоболевский С.С. Региональная политика в Европейском Союзе // В сб.: Проблемы и механизмы регионального развития в России. Москва: Эпикон,1998, 376 с.; Иванов И.Д. Расширение ЕС: сценарий, проблемы, последствия // Мировая экономика и международные отношения, 1998, № 9, с. 22-33.

[2] Кононенко С.А. Принципы политического единства Европейского Союза: Автореф. дис…канд.пол. наук. Баку, 2009, 20 с.

[3] Шабельникова О.В. Политика Европейского Союза в отношении Азербайджанской Республики(1991-2014 гг.): Дис… канд. ист. наук. Москва: 2014, 182 с.

[4] Иванов О.П., Минаев О.С. Энергетическая безопасность ЕС// Мир и политика. 19.09.2012 // http://mir-politika.ru/1318-energeticheskaya-bezopasnost-v-es.html; Махнач И.М. Развитие энергетического диалога Российской Федерации и Европейского союза // журнал международного права и международных отношений. 2013, № 4, 63-70; Пашковская И.Г. Европейский Союз: энергетическая политика в отношении новых независимых

siyasətini, enerji təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirləri tədqiqat mövzusu kimi seçmiş və bu siyasətə fərqli mövqelərdən yanaşmışlar.

İ.D.İvanov, Y.A.Borko M.V.Strejneva, V.Q.Şemyatenkov, Y.V.Şişkov, A.N.Şoxinin tədqiqatları [1] Avropa regionunda cərəyan edən inteqrasiya proseslərinə və bu proseslərə postsosialist məkanı ölkələrinin qatılmasına həsr olunmuşdur. Həmin əsərlərin materiallarından Avropa təsisatları, qitədə demokratiyanın, inteqrasiya proseslərinin vəziyyətini şərh edərkən istifadə olunmuşdur.

Təhlükəsizlik məsələləri Azərbaycan və Avropa İttifaqı arasında müzakirə obyekti olan məsələlərin sırasında öndə gedir. Bu baxımdan D.B.Malışeva, M.Mixaylova, O.A.Vorkunova, S.S.Jiltsov və İ.S.Zonn və A.M.Uşakov, S.A.Zabelin, V.A.Derqaçev, V.L.İnozemtsev və digərlərinin əsərləri [2] ndə

---

государств// Институт Международных Исследований МГИМО (У) МИД России. Центр Евро-атлантической Безопасности. Аналитические доклады. 2009, выпуск 1(22), июль, Москва: МГИМО - Университет, 2009, 79 с.; Пашковская И.Г. Энергетическая политика Европейского Союза в отношении России и новых независимых государств. Москва: Проспект, 2010, 168 с.; Магомедов А.К. Энергетическая и транзитная геополитика «Большого Каспия» // Свободная мысль, 2009, № 2 (1597), с. 83-98.

[1] Борко Ю.А. От европейской идеи-к единой Европе, Москва: Деловая литература,2003, 464 с.; Иванов И.Д. Европа регионов //Мировая экономика и международные отношения, 1997, № 9, с. 5-19; Стрежнева М.В. Эволюция наднациональных институтов Европейского Союза в региональной подсистеме международных отношений //Восток - Запад: Региональные подсистемы и региональные проблемы международных отношений: Учебное пособие для вузов //Под ред. А.Д. Воскресенского; МГИМО(У) МИД России. Москва: РОССПЭН, 2002, с. 150-166; Шемятенков В.Г. Европейская интеграция. Москва: Международные отношения, 2003, 400 с.; Шишков Ю.В. Интеграционные процессы на пороге XXI века. Почему не интегрируются страны СНГ. Москва: Н.П. III тысячелетие, 2001, 470 с.; Шохин А.Н., Королев Е.А. Взаимодействие бизнесом власти в Европейском Союзе. Москва: Изд-во ГУ ВШЭ, 2008, 160 с.;

[2] Малышева Д.Б. Геополитические маневры на Каспии // Россия и мусульманский мир, 2006, № 10, с. 91-110; Михалева М. Каспий - зона соперничества или сотрудничества? // Россия и мусульманский мир, 2010, № 1, с. 55-63; Воркунова О.А. Средиземноморье-Черноморье-Каспий-«пограничье» в мировой политике // Средиземноморье-Черноморье-Каспий: между Большой Европой и Большим Ближним Востоком. Москва: Издательский дом «Граница», 2006, с.43-50; Жильцов С.С., Зонн И.С., Ушаков А.М. Геополитика Каспийского региона. Москва: Международные отношения, 2003, 280 с.; Забелин С.А.

Cənubi Qafqazda, Xəzər hövzəsində təhlükəsizlik sahəsində mövcud olan vəziyyətin təhlili verilir, mövcud təhdidlər və bununla əlaqədar region ölkələrinin tutduqları mövqe ilə bağlı məqamlara toxunulur, habelə yaranmış vəziyyətə Rusiyanın maraqları baxımından aydınlıq gətirilir. Bu əsərlərdə özünü göstərən qeyri-obyektiv, ambisiyalı, bəzən isə açıq şəkildə qərəzli mövqeyə baxmayaraq Rusiya elmi-siyasi fikri regionla bağlı açıq həqiqətləri etiraf etməyə məcbur olur.

Tədqiqatın gedişində elmi dövriyyəyə gətirilən xarici müəlliflərin əsər və araşdırmalarını üçüncü qrupa aid etmək olar. Qeyd edək ki, Qərb müəllifləri rusiyalı tədqiqatçılardan fərqli olaraq dünyada və postsovet məkanında baş verənlərə daha obyektiv yanaşaraq, Rusiyanın Cənubi Qafqazda mövcudluğu şəraitində burada Qərb dövlətləri ilə geosiyasi rəqabətin güclənəcəyini göstərirlər. Avropa və ABŞ müəlliflərinin araşdırmalarında Avropanın Azərbaycanla əməkdaşlığında Böyük İpək yolu və regionun zəngin enerji ehtiyatları ilə yanaşı, buranın Rusiyanın Yaxın Şərqdə baş verənlərə təsirinin azaldılmasında əhəmiyyəti də obyektiv qiymətləndirilir. Bu baxımdan U.Bek, Z.Bjezinski, İ.T.Berend, H.Binnendik, F.Çarillo, P. Gallis, M. Haas, C. Hodge, M.Arax, L.Zidentop, A.Missiroli, V.Moll, K.Layne, İ.Lukes, J.Mirşeymerin, D.Pener və Tomas de Vaalın tədqiqatları[1]nda araşdırılan mövzunun müxtəlif aspektləri ilə bağlı məqamlara toxunulmuşdur.

---

Интересы и политика Европейского Союза. «Восточное партнерство» - цели и результаты // Черноморье-Каспий: поиск новых форматов безопасности и сотрудничества. Москва: ИП Скороходов В.А., 2011, с.32-38; Дергачев В.А. Глобальная геоэкономика. Одесса: ИПРЭЭИ НАНУ, 2003, 238 с.; Иноземцев В.Л. Восставшая из пепла: европейская экономика в XX веке // Мировая экономика и международные отношения, 2002, №1, с. 3-15.

[1] Бек У. Что такое глобализация? Москва: Прогресс-Традиция, 2001, 304 с.; Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. Москва: Международные отношения, 1999, 256 с.; Berend I.T. The Further Enlargement of the European Union in a historical Pespective //European Review, 1999, May, Vol. 7, №2, pp.175-181; Binnendijk H. The Emerging. European Security order. In: Washington Quarterly, 14/4, Washington: 1991, 391 p.; Charillon F. Sovereignty and Intervention: EU's Interventionism in its "New Abroad" //Contemporary European Foreign Policy, London: SAGE Publications Ltd, 2004, p. 252-264; Gallis P. NATO and Energy Security //http://www.au.af.mil/ au/awc/awcgate/crs/rs 22409. pdf; Haas M. Geostrategy in the South Caucasus; Power play and energy security of states and organizations. The Hague, Netherlands Institute of International Relations Clingendael, 2006, 95 p.; Hodge C. Federal Republic and Future of Europe // German Politics, 1992, vol. 1, №2, pp.10-17;

**Dissertasiyanın mənbə bazasına** tədqiqat prosesində istifadə olunan hüquqi aktlar, dövlət və hökumət başçılarının çıxışları, arxiv materialları və s. rəsmi sənədlər aiddir ki, bunlar qarşıya qoyulan məqsəd və vəzifələrə aydınlıq gətirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Avropa İttifaqı ilə qarşılıqlı əlaqələrinin qurulmasında və inkişafında, bu əlaqələrin hüquqi-normativ əsaslarının yaradılmasında Ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə aid ümummilli liderin baxışlarının, onun bəyanatlarının, müsahibələrinin, avropalı rəsmilərlə görüşləri zamanı söylədiyi nitq və çıxışları[1] tədqiqatın mühüm mənbə bazasını təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti kimi 2003-cü ildən fəaliyyətə başlayan İlham Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən ən mühümü Avropa İttifaqı ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə və bu prosesdə Azərbaycanın milli maraqlarının qorunmasına yönəlmişdir. Bu

---

Арах М. Европейский Союз: вйдение политического объединения I Пер. со словенского. Москва: РОССПЭН, 1998, 465 с.; Зидентоп Л. Демократия в Европе. Москва: Логос, 2001, 312 с.; Missiroli A. The EU and its changing neighbors: stabilization, integration and partnership, // "Partners and Neighbors: a CFSP for Wider Europe", Chaillot Paper, Paris, Institute for Security Studies, 2003, n 64, pp. 9-33; Molle W. The economics of European integration: theory, practice, policy. Aldershot: Ashgate Pub Ltd, 1997, 446 p.; Layne C. The Unipolar Illusion //International Security, 1993, Vol. 17. No. 4 (spring), pp. 37-45; Lukes İ. Central Europe Has Joined NATO**:** The Continuing Search for a More Perfect Habsburg Empire //SAIS Review, 1999, vol.19, namber 2, pp. 47-59; Mearsheimer J. Back to the Future: Instability in Europe after the Gold War // International Security, 1990, Vol. 17. No. 1 (summer), pp. 5-56; Pener D. Conflicts in Caucasus: European View. London: Intern. Studies, 2001, 362 p.; Tomas de Vaal. Qara Bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Bakı: İlay MMC, 2008, 344 s.

[1] Azərbaycan vahid və bölünməz Avropada. Bakı: AZNM, 2011, 438 s.; Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İkinci kitab: may, 1994 - dekabr, 1994. Bakı: Azərnəşr, 1997, 604 s.; Üçüncü kitab: dekabr, 1994 - iyun, 1995. Bakı: Azərnəşr, 1997, 488 s.; Dördüncü kitab: iyun, 1995 - noyabr, 1995. Bakı: Azərnəşr, 1997, 528 s.; Altıncı kitab: mart, 1996 - iyun, 1996. Bakı: Azərnəşr, 1998, 512 s.; İyirmi ikinci kitab: sentyabr, 1999 - noyabr, 1999. Bakı: Azərnəşr, 2007, 528 s.; İyirmi üçüncü kitab: noyabr, 1999 - dekabr, 1999. Bakı: Azərnəşr, 2008, 480 s.; İyirmi beşinci kitab: fevral, 2000 - mart, 2000. Bakı: Azərnəşr, 2008, 520 s.

baxımdan İlham Əliyevin çıxışlarının, bəyanatlarının, müsahibələrinin yer aldığı nəşrlər[1] tədqiqat prosesinə cəlb olunan vacib mənbələr sırasındadır.

Dissertasiyanın mənbəşünaslıq bazasında Azərbaycan Respublikasında qəbul olunmuş qanunvericilik aktları, proqram və sənədlər mühüm yer tutur. “Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının qanunu”, “Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkisafı (2005-2015-ci illər) üzrə dövlət proqramı” Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında hüquqi-normativ bazanın yaradılmasına xidmət edir.

Azərbaycan-Avropa İttifaqı əlaqələri müxtəlif istiqamətlərdə inkişaf edir. Bu əlaqələrin xarakterindən və dinamikasından aslı olaraq, müqavilələr imzalanır, hüquqi aktlar qəbul edilir, hesabatlar hazırlanır ki, tədqiqat zamanı bu materiallardan istifadə olunmuşdur. Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığı tənzimləyən, tərəflərin maraqlarını müəyyənləşdirən hüquqi aktlar da diqqətdən kənarda qalmamışdır. Bu sənədlərdə Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün təşkilatın müəyyənləşdirdiyi məqsədlər və vəzifələr, Azərbaycan Respublikası ilə enerji əməkdaşlığının əhəmiyyəti və vacibliyi, Azərbaycandan Avropaya doğru uzanan neft-qaz kəmərləri və s. ilə bağlı məsələlər öz əksini tapmışdır.

Azərbaycan-Aİ əlaqələrində TRACECA-Böyük İpək yolu layihəsi mühüm əhəmiyyətə malikdir. Məhz buna görə, tədqiqata Avropa-Asiya nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələləri əks etdirən materiallar da cəlb edilmişdir. Bu sənədlərdə tarixi “İpək yolu”nun bərpası, əhəmiyyəti, bu prosesdə iştirak edən aktorların, o cümlədən Azərbaycan və Avropa İttifaqının mövqeləri və s. ilə bağlı məqamlar yer almış və hüquqi cəhətdən əsaslandırılmışdır.

---

[1] Əliyev İlham. Azərbaycan-Amerika: strateji əməkdaşlığın üfüqləri. “Azərbaycandan keçən Avrasiya nəqliyyat dəhlizi” mövzusunda 1998-ci ildə Vaşinqtonda təşkil olnumuş seminarda nitq // Dirçəliş - XXI əsr jurnalı, Bakı, 2000, yanvar, 1 (23), s.42-45; Yenə onun. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. Birinci kitab. Avqust, 2003 - oktyabr, 2003. Bakı: Azərnəşr, 2008, 424 s.; İkinci kitab. Oktyabr, 2003 - fevral, 2004. Bakı: Azərnəşr, 2009, 432 s.; Üçüncü kitab. Fevral, 2004 - aprel, 2004. Bakı: Azərnəşr, 2009, 416 s.; Dördüncü kitab. Aprel, 2004 - iyun, 2004. Bakı: Azərnəşr, 2009, 400 s.; Beşinci kitab. İyun, 2004-avqust, 2004. Bakı: Azərnəşr, 2010, 392 s.; Yenə onun. Müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası uğurla həyata keçirilir. 1999-cu il sentyabrın 20-də edilmiş məruzə // Dirçəliş - XXI əsr, Bakı, 2003, № 59, s.72-85.

Avropa İttifaqının qonşularla münasibətlərində ayrı-ayrı ölkələrlə imzalanmış fəaliyyət planları da mühüm yer tutur. Tədqiqat zamanı Cənubi Qafqaz respublikaları ilə imzalanmış fəaliyyət planları müqayisəli təhlil edilmiş və bunun əsasında Avropa İttifaqının Azərbaycan, Gürcüstan və Ermənistana münasibətdə fərqli mövqelərdən çıxış etdiyi müəyyənləşdirilmişdir. Azərbaycana münasibətdə belə fərqli mövqe "ikili standartlarda" öz əksini tapmışdır ki, tədqiqatda onun mahiyyəti və səbəbləri açılmışdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxiv fondlarında saxlanılan materiallara müraciət olunması isə ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və energetika sahəsi ilə bağlı məsələlərin araşdırılması zamanı yaranan bir sıra problemlərin səbəb və nəticələrinin əlaqəli təhlili və qiymətləndirilməsi ilə bağlı olmuşdur.

Azərbaycan və xarici ölkələrin kütləvi informasiya vasitələrində, xüsusilə mətbuatında dissertasiya mövzusu ilə bağlı çoxsaylı materiallar çap olunmuşdur. "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Эхо", "Наш век", "НГ-Энергия", "Зеркало" və "Financial Times" və s. qəzetlərdə, internet ünvanlarında yer almış materiallar (bunları hər üç qrupa aid etmək olar) Azərbaycan-Aİ əlaqələrinin müxtəlif istiqamətlərinin işıqlandırılması üçün əhəmiyyətli olmuşdur.

Göstərilən qaynaq və sənədlərin tədqiqat prosesinə cəlb olunması və onların kompleks şəkildə nəzərdən keçirilməsi ümumilikdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin təbiətini, istiqamətlərini, dinamikasını və perspektivlərini müəyyənləşdirmək sahəsində mühüm əhəmiyyət kəsb etmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca məqsədi Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1991-2008-ci illərdə qarşılıqlı münasibətlərin yaranması və inkişaf tarixini tədqiq etmək, bu əməkdaşlığın müasir geostrateji münasibətlər sistemində həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə yeri, rolu, əhəmiyyəti, istiqamətləri və perspektivlərini öyrənməkdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıda göstərilən vəzifələr müəyyən edilmişdir:

- Azərbaycan Respublikasının Avropa İttifaqına inteqrasiyasının vacibliyi və əhəmiyyətinin araşdırılması;
- Avropa İttifaqının Cənubi Qafqaz siyasəti kontekstində Azərbaycanla Aİ arasında qarşılıqlı əməkdaşlığın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
- TACİS, Avropa Qonşuluq Siyasəti və Şərq tərəfdaşlığı proqramlarının Azərbaycan Respublikası üçün əhəmiyyətinin müəyyənləşdirilməsi;
- Avropa İttifaqının regional layihələrində Azərbaycanın iştirakının elmi-siyasi təhlilinin verilməsi;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması sahəsində Avropa İttifaqının nümayiş etdirdiyi "ikili standartların" mahiyyətinin açılması və təhlil edilməsi;

- Aİ Fəaliyyət Planının mahiyyəti və Azərbaycan üçün açdığı perspektivlərin qiymətləndirilməsi;

- enerji sahəsində Azərbaycanla Avropa İttifaqı arasındakı əməkdaşlığın mövcud vəziyyəti və inkişaf yollarının təhlil edilməsi;

- Azərbaycanla Avropa İttifaqı arasında sosial və humanitar sahələrdə qarşılıqlı münasibətlərin səciyyəsinin verilməsi və inkişaf istiqamətlərinin göstərilməsi.

**Tədqiqatın nəzəri-metodoloji bazası** müəyyənləşdirilərkən başlıca diqqət Ümummilli lider Heydər Əliyevin Azərbaycanın xarici siyasəti, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı ilə qarşılıqlı münasibətlərinə aid irəli sürdüyü və konseptual əhəmiyyətli fikirlərə yönəlmişdir ki, həmin materiallar Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin hazırladığı "Azərbaycan vahid və bölünməz Avropada" kitabında elmi-ictimai fikrə təqdim olunmuşdur. Bununla yanaşı, beynəlxalq münasibətlərin, Cənubi Qafqaz və Avropa İttifaqı məkanında cərəyan edən proseslərin inkişaf tendensiyaları araşdırılarkən, geosiyasi nəzəriyyə və konsepsiyalara müraciət olunmuşdur ki, bu amil müəllifə Azərbaycan-Avropa İttifaqı əlaqələrinə dair elmi-nəzəri ümumiləşdirmələr aparmağa imkan vermişdir.

Tədqiqatın metodiki bazasını müasir elmi-nəzəri fikrin nailiyyətləri əsasında tarix, siyasətşünaslıq və beynəlxalq münasibətlər elminin ümumən qəbul olunmuş və xüsusi siyasi metodları təşkil edir. Problemin araşdırılmasında tarixilik, obyektivlik, elmilik, problem xronologiya metodlarına xüsusi diqqət yetirilmiş, beynəlxalq şəraitin təhlili metodlarından: sənəd və materialların öyrənilməsi, müqayisəli təhlil, rəsmi və qeyri-rəsmi sənəd və materiallar üzərində tədqiqatların aparılmasından, təsviri metodlardan və onların nəticələrinin müqayisəsindən, sistemli yanaşmadan istifadə edilmiş, hadisələrin obyektiv qiymətləndirilməsi üçün müqayisəli tarixi təhlilə üstünlük verilmişdir.

**Tədqiqatın elmi yeniliyi** problemin aktuallığı, qarşıya qoyulmuş məqsəd və vəzifələrlə əlaqəli şəkildə müəyyənləşdirilmiş, 1991-2008-ci illər arasındakı dövrdə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında çoxtərəfli əməkdaşlığın məzmun və mahiyyəti xronoloji ardıcıllıqla tədqiq edilmişdir:

- tədqiqatda ilk dəfə olaraq Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq dövrlərə bölünərək xüsusiyyətləri müəyyənləşdirilməklə kompleks şəkildə araşdırılmışdır;

- tarixşünaslıq baxımından ilk dəfə olaraq Azərbaycan hökumətinin xarici siyasət fəaliyyətində Avropaya inteqrasiyanın prioritetliyinin elmi-siyasi təhlili verilmişdir;

- Avropa siyasi, iqtisadi və təhlükəsizlik məkanına Azərbaycan Respublikasının inteqrasiyasını şərtləndirən və əngəlləyən amillərin təhlili verilmişdir;

- tədqiqat prosesində tərəflər arasında imzalanmış bəzi hüquqi aktların, qəbul edilmiş sənədlərin ilk dəfə elmi tədqiqata cəlb olunaraq təhlili verilir və mahiyyəti açılıb göstərilmişdir;

- Azərbaycan-Aİ əməkdaşlığına dair tədqiqat işi bu ölkənin enerji resurslarına ehtiyac duyan, bu yolla Rusiyadan enerji asılılığını azaltmağa çalışan, buna baxmayaraq Ermənistana himayəçilik edib, respublikamıza münasibətdə "ikili standartlar" dan yanaşan Qərbin maraqlarının tənqidi təhlili əsasında yerinə yetirilmişdir;

- elmi-siyasi dövriyyəyə bir sıra yeni qaynaqlar gətirilmiş, Azərbaycan ictimaiyyətinin diqqətindən kənarda qalan xarici nəşrlərdə yer alan fikir və ideyalar təhlil edilmişdir;

- elmi-siyasi və praktiki əhəmiyyətə malik tövsiyələr verilmişdir.

**Dissertasiyanın praktiki əhəmiyyəti** Azərbaycan Respublikasının Avropa İttifaqının xarici siyasət məsələləri ilə məşğul olan strukturları, mütəxəssislər, tədqiqatçılar və ekspertlər üçün yararlılığı ilə müəyyən olunur. Dissertasiyanın faktoloji materiallardan əldə olunan nəticələrdən istifadə etməklə problemlə bağlı yeni tədqiqatların aparılması və əsərlərin yazılması mümkündür. Tədqiqat işinin sənəd və materialları, habelə elmi nəticələrindən tarix, politologiya, beynəlxalq münasibətlər, geosiyasətlə məşğul olan tədqiqatçılar və mütəxəsislər tərəfindən ali məktəblərdə müvafiq problem üzrə mühazirə və seminarların tədrisində istifadə oluna bilər.

Dissertasiyanın materiallarından, həmçinin siyasi elmlər sahəsində dərs vəsaitlərinin və proqramların hazırlanmasında, praktik xarici siyasət məsələləri ilə məşğul olan idarə, müəssisələr və şəxslərin real elmi gerçəkliyi öyrənməsi baxımından da istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında iki dəfə müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya mövzusu üzrə nəşr olunmuş məqalə və tezislərdə tədqiqatın əsas məzmunu, başlıca müddəa və nəticələri öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi "Giriş", üç fəsil, səkkiz yarımfəsil, "Nəticə" və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbə bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Girişdə həmçinin tədqiqatın metodoloji əsası, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **“Avropaya inteqrasiya Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində prioritet istiqamət kimi”** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. **“Azərbaycan Respublikasının Avropa inteqrasiya proseslərinə qatılması və TACİS proqramında iştirakı”** adlı ilk yarımfəsildə XX əsrin 90-cı illərinin əvvəllərində dünyada baş vermiş qlobal dəyişikliklər, SSRİ-nin və dünya sosializm sisteminin dağılması nəticəsində ötən əsrdə ikinci dəfə dövlət müstəqilliyi qazanmış Azərbaycanın dünya birliyinin sıralarına daxil olması gedişində özünü göstərən hadisə və proseslərin təhlili verilir, Qərb dövlətləri və regional təşkilatların Azərbaycana göstərdikləri maraq və güddükləri məqsədlərin mahiyyəti açılıb göstərilir.

İnteqrasiyanın daha sürətlə getdiyi coğrafi məkan Avropa qitəsi hesab edilir. Zaman keçdikcə sürətlənən bu proses hazırda ümumplanet miqyası almışdır ki, Azərbaycan Respublikası da müstəqilliyin ilk illərindən bu prosesdə fəal iştirak edir. Tədqiqatçılardan H.K.Hüseynova yazırdı ki, “yarandığı gündən etibarən Azərbaycanın üzünü Qərb dünyasına tutması bir sıra sosial-siyasi, iqtisadi və mədəni amillər kompleksi ilə bağlı idi. Qərb istiqaməti ilk növbədə Azərbaycanın dövlət müstəqilliyinə etibarlı təminat verirdi”[1].

Müasir dövrdə Avropanın dünyada genişlənən inteqrasiya proseslərinin tipiknümunəsi kimi götürülməsi və dünyanın diqqətinin Qərbə yönəlməsi təsadüfi olmayıb, ilk növbədə Avropa İttifaqının beynəlxalq nüfuzu və iqtisadi gücü ilə əlaqədardır. XX əsrin 90-cı illərinin əvvəllərində baş verən məlum hadisələrdən sonra İttifaqın Şərqə doğru genişlənməsinə start verildi. Avropa İttifaqı bununla bağlı xüsusi tədbirlər planı -PHARE (Polşa və Macarıstana iqtisadiyyatın bərpası üzrə yardım) və TACİS (yeni müstəqillik qazanmış dövlətlərə texniki yardım) layihələrini işləyib hazırladı və həmin layihələrə uyğun olaraq fəaliyyət göstərməyə başladı.

---

[1] Hüseynova H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi nəşriyyat, 1998, s.53.

Müstəqillik qazanmış dövlətlərə münasibətdə Avropa İttifaqının TACİS proqramı keçmiş sovet respublikalarına (postsovet məkanı ölkələrinə) təmənnasız şəkildə yardım etməklə, bazar iqtisadiyyatının və demokratiyanın inkişaf etdirilməsinə imkan yaradılmasını nəzərdə tuturdu. Proqram ilk dəfə hələ 1990-cı ilin dekabrında Avropa İqtisadi Birliyinin Romada keçirilən iclasında müzakirə edilərək qəbul olunmuşdur. Proqramın həyata keçirilməsi üçün Avropa İttifaqı 5,6 mlrd. dollar vəsait ayırmışdı.

Avropa İttifaqının "Şərqə doğru genişlənmə siyasəti"ndə Cənubi Qafqaza, xüsusilə strateji əhəmiyyəti və iqtisadi resursları böyük olan Azərbaycan Respublikasına mühüm yer ayrılmışdı. Dövlət müstəqilliyinin ilk dövrlərindən beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanınması Azərbaycanın beynəlxalq inteqrasiya proseslərinə qatılmasına geniş yol açırdı. Öz gələcək inkişaf yollarını daha çox Qərb modelinə bağlayan müstəqil Azərbaycan üçün Avropa İttifaqı ölkələri ilə sıx əlaqələrin qurulması və Avropaya inteqrasiya prioritet məsələ idi.

Fəslin **"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında diplomatik-siyasi münasibətlərin qurulması və inkişaf istiqamətləri"** adlanan ikinci yarımfəslində rəsmi əlaqələrin qurulması istiqamətində həyata keçirilən tədbirlər işıqlandırılır.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığının əsasları hələ 1991-ci il dekabrın 31-də Aİ və üzv dövlətlərin Azərbaycanın dövlət müstəqilliyini tanımaq haqqında birgə bəyanatından sonra qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Aİ və Avropa Şurası ilə əməkdaşlığın yeni mərhələsi başladı, qarşılıqlı əlaqələrə dair normativ-hüquqi bazanın təkmilləşdirilməsi, respublikamızda həyata keçirilən demokratik islahatlar Aİ ilə Azərbaycan arasında isti münasibətlərin və Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanmasına yol açdı və 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa Birliyinin üzv dövlətləri və Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı.Saziş Azərbaycan Respublikasının Milli Məclisində, Avropa Parlamentində, Avropa Birliyinin üzv dövlətlərinin milli parlamentlərində təsdiq edildikdən sonra, 1 iyul 1999-cu il tarixində qüvvəyə mindi[1].

---

[1]Соглашение о партнерстве и сотрудничестве между ЕС и Азербайджаном 1996 года (Коммент. П.Л.Калиниченко)- http://eulaw.edu.ru/documents/legislati on/eea/ pca_azer.htm.

TACİS-in çoxprofilli layihələri içərisində beynəlxalq təşkilatların əksəriyyəti üçün əhəmiyyət kəsb edən və enerji bölməsi ilə bağlı olan layihələr - TRACECA və INOGATE sayıla bilər.

TRACECA-nın inkişafı tarixində ən əhəmiyyətli tədbir Bakı konfransıdır. Azərbaycan və Gürcüstan Respublikaları prezidentlərinin təşəbbüsü ilə 1998-ci il sentyabrın 8-də çağırılmış həmin konfrans "Tarixi İpək Yolu" şüarı altında keçirildi. Tədbirdə TRACECA-nın iştirakçısı olan 32 dövlətin yüksək dərəcəli nümayəndələri ilə yanaşı, 13 beynəlxalq təşkilatın təmsilçiləri də iştirak etmişdi[1]. Konfransda Avropa İttifaqı Komissiyası və iştirakçı ölkələrin rəhbərləri tərəfindən "Avropa - Qafqaz - Asiya Nəqliyyat - Kommunikasiya Dəhlizinin İnkişafına dair Çoxtərəfli Saziş" adlı sənəd imzalandı.

Enerji daşımaları istiqamətində Avropa İttifaqının digər bir layihəsi olan İNOGATE 1995-ci ildə işlənib hazırlanmış, ilk iki iclası 1995-ci ilin noyabrında və 1996-cı ilin aprelində Brüsseldə keçirilmişdir. 1996-cı ildə İNOGATE üzrə işçi qrup yaradılmışdır və Azərbaycan da orada təmsil olunur.

Fəslin **"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Avropa İttifaqının xarici siyasət fəaliyyətində"** adlanan üçüncü yarımfəslində münaqişənin qaynaqları, inkişaf dinamikası, regional təhlükəsizliyə gətirdiyi təhdidlər və Aİ-nin münaqişənin nizamlanması ilə bağlı fəaliyyəti açılıb göstərilir. Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddiaları zəminində başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan əraziələrinin 20 faizinin işğalına, 1 mln. nəfərdən çox qaçqın və köçkünün yurd-yuvasından didərgin düşməisnə gətirib çıxarmışdır. Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun işğalı Azərbaycanın infrastrukturuna ağır zərbə vurmuş və Ermənistanın separatçılıq siyasəti Azərbaycana 60 mlrd. dol. miqdarında zərər vurulmasına gətirib çıxarmışdı.

Ermənistanın təcavüzkar siyasətinin qarşısının alınması və işğal olunmuş ərazilərin azad edilməsi dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin prioritet məsələlərindəndir. Beynəlxalq hüquq prinsiplərini rəhbər tutan rəsmi Bakı problemi dinc vasitələrlə, o cümlədən beynəlxalq təşkilatların iştirakı və vasitəçiliyi ilə həll etməyə üstünlük verir.

Avropa Birliyinin bu münaqişəyə ilk rəsmi münasibəti 1992-ci ilə aiddir. Təşkilat münaqişə zonasında hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar olaraq, həmin il mayın 22-də bəyanatla çıxış etmişdir. Avropa Birliyinin qəbul etdiyi bu sənəddə əhəmiyyətli bir məqam öz əksini

---

[1] Байрамалибекова Ф. Азербайджан и европейская политика соседства. Газ., «Наш век», 2004,16 -22 июля, №27 (266).

tapmışdır: "Azərbaycanlı və erməni əhalinin fundamental hüquqları mövcud sərhədlər məzmununda tam şəkildə bərpa edilməlidir" [1].

Münaqişə bölgəsində hərbi əməliyyatların davam etməsi Avropa Birliyini bir neçə dəfə bu məsələyə qayıtmağa vadar etmişdir.

Problemə münasibətdə mövqeyini dəyişməyən Avropa Birliyi müasir dövrə qədər Ermənistanı məsuliyyətdən kənarda saxlayır, lakin Dağlıq Qarabağdakı erməni hərbi birləşmələri üzərində onun təsirə malik olduğu etiraf olunur. XX əsrin 90-cı illərinin ikinci yarısından sonra Avropa İttifaqı tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nəzərəçarpacaq addım atılmamışdır. Ümumiyyətlə, bu təşkilat qeyd olunan problemə ciddi şəkildə ehtiyatlı münasibətdə bəsləyirdi ki, belə münasibət "ikili standartlar" siyasətinin təzahürü idi.

Dissertasiyanın **"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında çoxtərəfli əməkdaşlıq: problemlər və ziddiyyətlər"** adlanan ikinci fəsli xronoloji baxımdan 2000-2005-ci illəri əhatə edir və üç yarımfəsildən ibarətdir. Fəslin **"Azərbaycanın Avropa İttifaqının enerji və kommunikasiya siyasətində yeri"** adlanan birinci yarımfəslində Azərbaycan-Aİ əlaqələrində neft amili və kommunikasiya xəttlərinin əhəmiyyəti araşdırılır.

Azərbaycan Respublikasının neft və kommunikasiya siyasətinin əsasları Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlandığı üçün "neft və kommunikasiya diplomatiyası" adını almışdır. Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinə isə Heydər Əliyevin adı verilmişdir. Milli diplomatiyamızın neft və kommunikasiya siyasəti ilə bağlı çoxsaylı tədqiqatların ərsəyə gəldiyini, məqalələrin yazıldığını, sənəd və materialların elmi-ictimai fikrə çatdırıldığı nəzərə alınaraq, bu yarımfəsildə qoyulan məsələlər Azərbaycan-Aİ münasibətlərinin konkret zaman kəsiyində təhlil edilir.

Avropa İttifaqının Azərbaycandakı maraqlarında mühüm əhəmiyyətə malik enerji amili XXI əsrin əvvəllərindən etibarən yeni xüsusiyyətlər kəsb etməkdədir. Azərbaycan, Xəzər hövzəsi ölkələrinin enerji bazarlarını özünün daxili enerji bazarı ilə birləşdirilməsinə və vahid bir şəbəkənin yaradılması məsələsinə kifayət qədər ciddi yanaşır. Ümumiyyətlə, Avropa İttifaqının Cənubi Qafqaz, Xəzər hövzəsi ölkələri ilə bağlı qəbul etdiyi sənədlərdə enerji məsələləri həmişə mühüm yer tutmuşdur.

Avropa Komissiyasnın 2000-ci ilin noyabrında hazırladığı "Yaşıl kitab. Avropa enerji təminatı təhlükəsizliyi strategiyasına doğru" adlı sənəd

---

[1] Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi-http://files.preslib.az/ projects/azerbaijan/gl8.pdf.

bir tərəfdən Avropa İttifaqının xarici enerji mənbələrindən asılılığını bir daha göstərir, digər tərəfdən isə təşkilatın enerji təminatı sahəsində strategiyasını müəyyənləşdirirdi[1].

Fəslin **"Sosial və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi"** adlanan ikinci yarımfəslində Azərbaycanın dövlət müstəqilliyinin ilk illərindən etibarən sosial və humanitar sahələrdə əməkdaşlığın yaradılması və inkişafı araşdırılır. Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi nəticəsində bir milyon nəfərdən çox soydaşımız qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyətində qalmışdır ki, bu insanların həyat şəraitini yaxşılaşdırmaq üçün beynəlxalq təşkilatların, o cümlədən də Avropa İttifaqının yardımları böyük əhəmiyyətə malik idi.

Avropa İttifaqının Azərbaycana göstərdiyi humanitar yardımların müəyyən hissəsi ölkədə struktur islahatlarının aparılması, sosial, iqtisadi, elm və təhsil sahələrinin inkişaf etdirilməsi, yeni texnologiyaların ölkəyə gətirilməsi üçün nəzərdə tutulmuşdu. Digər sahələrdə olduğu kimi, sosial və humanitar–mədəni sahələrdə də Aİ-nin yardımları regional xarakterli olur və üç Cənubi Qafqaz respublikası üçün nəzərdə tutulurdu.

Fəslin **"Azərbaycan-Aİ əməkdaşlığının genişləndirilməsində "Avropa Qonşuluq Siyasəti" və "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyəti"** adlanan üçüncü yarımfəslində Aİ-nin genişlənməsi kontekstində ikitərəfli əməkdaşlığın inkişaf dinamikası izlənilir.

XX yüzilliyin 90-cı illərində Avropa İttifaqının "coğrafi yaxınlığa" əsaslanan xarici siyasət xəttini həyata keçirməsi sonda "Avropa İttifaqının yaxın qonşuları" ideyasının meydana gəlməsini şərtləndirdi və Avropa İttifaqına inteqrasiya edilməsi nəzərdə tutulan "yaxın qonşular" üç qrupa bölündü. Birinci qrupa Mərkəzi və Şərqi Avropa ölkələri, ikinci qrupa Balkan ölkələri, üçüncü qrupa isə Aralıq dənizi hövzəsi ölkələri daxil idilər[2]. Avropa Komissiyası daxilində gedən müzakirələrdən sonra 2005-ci il martın 2-də Şuraya "Avropa Qonşuluq Siyasəti - Azərbaycan, Ermənistan, Gürcüstan, Misir və Livan üçün tövsiyyələr" adlı müraciət ünvanlandı. Müraciətdə korrupsiyaya qarşı mübarizəni gücləndirmək, qanunun aliliyini və demokratik

---

[1] Green Paper - Towards a European strategy for the security of energy supply.COM/2000/0769 final - http://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri =CELEX:52000DC0769.

[2] Charillon F. Sovereignty and Intervention: EU's Interventionism in its "New Abroad" // Contemporary European Foreign Policy, London: SAGE Publications Ltd, 2004, p. 253-254.

nəzarəti möhkəmlətmək, dövlət bölməsinin modernləşdiriməsini davam etdirmək, şəffaf idarəetmə sistemi yaratmaq və bazar iqtisadiyyatını inkişaf etdirmək üçün islahatlar həyata keçirmək tövsiyə olunurdu.

Dissertasiyanın **"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi (2006-2008)"** adlanan üçüncü fəslində xronoloji baxımdan 2006-2008-ci illəri əhatə edir və iki yarımfəsildən ibarətdir. Fəslin **"Azərbaycanın Avropaya inteqrasiyasında Aİ Fəaliyyət Planının rolu"** adlanan birinci yarımfəslində Azərbaycanın Avropanın iqtisadi və sosial strukturlarına inteqrasiyası sahəsində vəzifələri müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının Avropa Qonşuluq Siyasətinə qoşulması Aİ ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlərin müəyyənləşdirilməsinə gətirib çıxardı. Avropa Parlamenti və Şurasının 2005-ci ilin martında qəbul etdiyi Tövsiyələrdə Azərbaycanın sosial-iqtisadi inkişafı və demokratik quruculuq işləri təhlil edilir, əməkdaşlığın davam etdirilməsi yolları göstərilirdi. Tövsiyələrin əsasında Aİ Nazirlər Şurası aprelin sonunda Azərbaycanla Fəaliyyət Planının hazırlanmasına dair müsbət qərar çıxardı və həmin qərara əsasən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə respublikamızın Avropaya inteqrasiyası məsələləri üzrə Dövlət Komissiyası yaradıldı. Komissiya Aİ-nin tövsiyələri və qərarı əsasında əməkdaşlığın perspektivi yollarına aydınlıq gətirdi. Dövlət komissiyasının hazırladığı təkliflər Fəaliyyət Planı üçün əsas götürüldü.

Fəslin **"Azərbaycan-Avropa İttifaqı əlaqələrinin mövcud vəziyyətinin xüsusiyyətləri"** adlı ikinci yarımfəslində xronoloji çərçivəyə uyğun olaraq çoxtərəfli əməkdaşlığın enerji, sosial və humanitar sahələri araşdırılır.

Azərbaycan Avropa İttifaqı münasibətlərinin inkişafında 2006-2008-ci illər də mühüm mərhələlərdən biri hesab edilə bilər. Azərbaycan Respublikasının Avropa Şurasındakı nümayəndə heyətinin rəhbəri S.İ.Seyidov Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığını mərhələlərə bölərək, 2005-ci ildən sonrakı dövrü "implementasiya mərhələsindən korreksiya mərhələsinə" keçid dövrü kimi xarakterizə etmişdi[1].

Araşdırma apardığımız əvvəlki mərhələlərdə olduğu kimi, 2006-2008-ci illərdə Azərbaycanla Aİ arasında müxtəlif sahələrdə, o cümlədən də enerji sahəsində əməkdaşlıq sistemli şəkildə davam etdirilirdi. Bu dövrdə Avropa İttifaqı özünün xarici enerji siyasətini inkişaf etdirmək məqsədilə bir sıra sənədlər qəbul etmişdi. Belə ki, 2006-cı il martın 3-də təqdim olunmuş

---

[1] Seyidov S.İ. Avropa məkanına inteqrasiya mərhələləri // Azərbaycan Fokus, Bakı, 2010, № 2 (2), s.72 .

“Yaşıl kitab. Sabit, rəqabət qabiliyyətli və təhlükəsiz energetikaya nail olmaq üçün Avropa strategiyası” adlı sənədin əsas qayəsi ümumavropa vahid xarici enerji siyasətinin zəruriliyinin əsaslandırılması idi. Sənəddə qeyd olunurdu ki, “Yaşıl kitab Avropa İttifaqının energetika siyasətinin inkişafında mühüm mərhələ təşkil edir.[1]

Tədqiqat prosesində toplanmış materialların analizi göstərir ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı təşəkkül tapdığı dövrlərdən enerji amili və onun Avropaya çıxarılması aparıcı siyasi xətt olmuşdur.

2006-2008-ci illərdə Avropa İttifaqı ilə Azərbaycan arasındakı qarşılıqlı əlaqələr istər icra strukturları, istərsə də qanunverici orqanlar səviyyəsində davamlı olaraq inkişaf edirdi. Əməkdaşlığın miqyası sahələr üzrə də kifayət qədər geniş olaraq qalırdı. Enerji, insan haqları, demoratikləşmə, təhlükəsizlik və s. sahələrdə əlaqələr sadəcə müzakirələrin aparılması ilə məhdudlaşmır, qarşılıqlı münasibətlərin sonrakı inkişafına pozitiv təsir göstərən konkret addımların atılması ilə xarakterizə olunurdu.

Dissertasiya işinin **“Nəticə”** hissəsində enerji, sosial, humanitar və s. sahələrdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yaranması, funksiyaları və inkişafında bu əməkdaşlığın yeri, rolu, istiqamətləri və perspektivləri ilə bağlı tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış, elmi-praktiki xarakterli bir sıra tövsiyələr verilmişdir.

---

[1] Пашковская И.Г. Энергетическая политика Европейского Союза в отношении России и новых независимых государств. Москва: Проспект, 2010, с.168 .

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Avropa Birliyinin "Regionçuluq" Proqramı və Azərbaycan / BDU-nun 90 illiyi münasibətilə magistrantların və gənc tədqiqatçıların elmi-praktik konfransının materialları. Bakı, 2009, s.135-139.
2. Avropa İttifaqının Şərqə inteqrasiya siyasətinə dair (XX əsrin 90-cı illəri) // Tarix və onun problemləri. Bakı, 2009, №4, s. 152-157.Avropa İttifaqının enerji layihələri və Azərbaycan / Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi konfransı. Bakı, 2011, s. 227-229.
3. Avropa Birliklərinin təşəkkülü tarixindən //Tarix və onun problemləri. Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş konfrans materialları. Bakı, №2, 2012, s. 158-162.
4. Mərkəzi Asiyanın Türk Dövlətləri və Avropa Birliyi // Turan Stratejik Araştırmalar Merkezi, Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi. Ankara, 2012, cilt: 4, sayı:13, s.116-123.
5. TEMPUS/TACİS и Азербайджан /"Гілея" Науковий вісник. Київ, 2013, Випуск 73 (№6), s. 87-88.
6. Avropa İttifaqının Azərbaycanla texniki əmkdaşlığına dair (1999-2005-ci illər) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2013, №2, s. 165-175.
7. Роль плана действий ЕС европейской интеграции Азербайджана //Znanstvena misel, Slovenia, 2017, № 8, s. 39-42.

**Лейла Вагиф гызы**

**Сотрудничество между Азербайджанской Республикой и Европейским союзом (1991-2008 гг.)**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена проблеме установления и развития отношений между Азербайджанской Республикой и Европейским Союзом. Представленная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Во введении** даются сведения об актуальности темы, степени ее изученности, целях, научной и практической значимости, методологической основе, хронологических рамках, объекте, апробации и структуре диссертации.

Первая глава диссертации называется **«Европейская интеграция как приоритетное направление внешней политики Азербайджанской Республики»** и состоит из трех параграфов. Эта глава включает в себя исследование таких вопросов как история создания Европейского Союза и основные направления его деятельности, распространение TACIS на Азербайджан.

Вторая глава диссертации также состоит из трех параграфов и называется: **«Многостороннее сотрудничество между Азербайджанской Республикой и Европейским Союзом: проблемы и противоречия (2000-2005)»**. В этой главе были исследованы вопросы, связанные с сотрудничеством с Азербайджанской Республикой в нескольких приоритетных направлениях в рамках программ «Расширенная Европа» и «Большая Европа».

Третья глава называется **«Расширение сотрудничества между Азербайджанской Республикой и Европейским Союзом (2006-2008)»**. В этой главе, состоящей из двух параграфов, рассмотрены основные проблемы сотрудничества сторон в 2006-2008 годы в рамках принятого в 2006 году Плана действий ЕС - Азербайджанская Республика.

В **Заключении** диссертации подведены итоги исследования, сделаны обобщения и проанализированы полученные результаты.

**Leyla Vagif kizi**

**The collaboration between Azerbaijan Republic and The European Union (1991-2008 years)**

**SUMMARY**

The dissertation work has been devoted to establishment and development connections (ties) between Azerbaijan Republic and European Union.

In **Introduction** the information on relevance of a subject, degree of study, the purpose, scientific innovation, goals and objectives, the scientific and practical importance, a methodological basis, a chronological framework, object, approbation and structure of thesis is supplied.

The first chapter is calling **"Integration to Europe as a priority direction in foreign policy acts of Azerbaijanian Republic"** and consists of three half chapters. Such problems as a formation (establishment) history and the main act directions of European Union, concerning of TACIS to Azerbaijan are investigated (researched) in this chapter.

The second chapter consists of two half chapters and is calling **"Multilateral cooperation between Azerbaijan Republic and European Union: the problems and the conflicts (contradictions) (2000-2005)"**. Under the frame of "Expanded Europe" and "The Great Europe" some priority collaboration directions with Azerbaijan Republic are explored in this chapter.

The third chapter is calling **"The expansion of collaboration between Azerbaijan Republic and European Union (2006-2008)"**. This chapter consists of two half chapters and in this chapter are explored the main problems of collaboration between sides during 2006-2008 years according to the European - Azerbaijan Republic actions Plan accepted in 2006.

The dissertation comes to the end in the part of **Conclusion**.

Sifariş 86

Sayı 100 ədəd

“Ləman”nəşriyyat poliqrafiya MMC-də çap edilmişdir

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЛЕЙЛА ВАГИФ ГЫЗЫ**

# СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ЕВРОПЕЙСКИМ СОЮЗОМ (1991-2008 гг.)

Специальность: 5502.01 – Всеобщая история

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2017**